*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 5-22* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.5*

# Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil" və "Altmışıncılar" mərhələsi, yaxud sərt realizm – modernizm dövrü

**İsa Həbibbəyli**
Akademik
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Azərbaycan Sovet ideologiyasından aralanma, uzaqlaşma proseslərini yaşayan "Aralıq ədəbi nəsil"in meydana çıxması ilə Azərbaycan ədəbiyyatının inkişafında yeni tarixi dövr başlanmışdır. Onlar ədəbiyyatda özlərindən sonra gələn Azərbaycan "Altmışıncılar"ı ədəbi nəsli üçün zəmin və meydan hazırladılar ki, bu da "Əllincilər"in – "Aralıq ədəbi nəsil"in yazıçı və şairlərinin xüsusi xidmətləri idi.
Azərbaycan ədəbiyyatşünaslıq elmində "Altmışıncılar"dan kifayət qədər yazılsa da, "Aralıq ədəbi nəsil" anlayışı hələlik yeni nəzəri baxış kimi elmi-ədəbi mühitdə ilk addımlarını atmaqdadır. Məqalədə qeyd olunur ki, ədəbi-tarixi dönüş proseslərini, "Aralıq ədəbi nəsil"in fəaliyyətini və xidmətlərini elmi cəhətdən araşdırıb dəyərləndirmədən, son yüzilliyin ədəbiyyatına obyektiv qiymət vermək mümkün deyil. Ona görə də "Aralıq ədəbi nəsil" anlayışı və bu ədəbi nəslin özünəməxsus xidmətləri, Azərbaycan ədəbiyyatındakı yeri və mövqeyi haqqında geniş və sistemli tədqiqatların aparılmasına böyük ehtiyac vardır.
Geniş mənada keçmiş sovet ədəbiyyatında gedən proseslərin təcrübəsi və Azərbaycan ədəbiyyatının XX əsrin altmışıncı-səksəninci illərindəki gedişatı göstərdi ki, yanaşı ədəbi istiqamətlər kimi fəaliyyət göstərmiş "Aralıq ədəbi nəsil"in hazırladığı zəmin əsasında "Altmışıncılar"ın yaratdıqları ədəbiyyat mahiyyəti etibarilə sərt realizm – modernizm ədəbi cərəyanını meydana gətirmişdir.
Ümumiyyətlə, "Altmışıncılar" ədəbi hərəkatı, yəni sərt realizm – modernizm ədəbi cərəyanı Azərbaycan ədəbiyyatında xüsusi bir ədəbi mərhələ təşkil etmişdir. Bu ədəbi mərhələ sosialist realizmi ədəbiyyatının süqutu və yekunu, müstəqillik dövrü ədəbiyyatının isə start nöqtəsi və möhtəşəm başlanğıcıdır.
**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, "Aralıq ədəbi nəsil", "Altmışıncılar", sərt realizm, modernizm, ədəbi-tarixi dönüş prosesləri

**Məqalə tarixçəsi:** göndərilib – 26.05.2025; qəbul edilib – 10.06.2025

# "Intermediate literary generation" in Azerbaijani literature and the period of "Sixtieths", or critical realism – modernism period

**Isa Habibbeyli**
Academician
The President of the Azerbaijan National Academy of Sciences
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** A new historical period began in the development of Azerbaijani literature with the emergence of "Intermediate literary generation" that experienced the process of moving away from the Azerbaijani Soviet ideology. They prepared the base and the area for the literary generation of Azerbaijani "Sixtieths" that came after them in literature and this was the speical services of the writers and poets of "Fiftieths" – "Intermediate literary generation".

In literary studies of Azerbaijan, although enough has been written about "Sixtieths", the concept of "Intermediate literary generation" takes its first steps in the scientific and literary environment as a new theoretical view. In the article it is noted that it is not possible to evaluate the literature of the past century objectively without scientifically researching and evaluating the literary historical turning processes, activities and services of the "Intermediate literary generation". That is why there is a great need for comprehensive and systematic research on the concept of "Intermediate literary generation", the unique services of literary generation and its place and position in Azerbaijani literature.
The processes experienced in the former Soviet literature and the progress of Azerbaijani literature in the sixties and eighties of the 20th century has shown that the literature created by "Sixtieths" based on the conditions prepared by "Intermediate literary generation" that functioned as parallel literary directions essentially created the critical realism – modernism literary movement.
In general, "Sixtieths" literary movement, critical realism – modernism literary movement created a special literary stage in Azerbaijani literature. This literary stage is the collapse and end of socialist realism literature, and the starting point and magnificent beginning of the literature of the independence period.
**Keywords:** Azerbaijani literature, "Intermediate literary generation", "Sixtieths", critical realism, modernism, literary-historical transformation processes

**Article history:** received – 26.05.2025; accepted − 10.06.2025

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq Azərbaycan ədəbiyyatı ideologiyalaşdırma prosesləri yaşamalı olmuşdur və bu da ədəbi-tarixi prosesdə tədricən özünün sinfi xarakterli ədəbiyyatını yaratmışdır. Doğrudur, sosializm idealları üstündə köklənmiş sovet ədəbiyyatı çərçivəsində, nə qədər çətin olsa da, əsl ədəbiyyat nümunələri də meydana çıxmışdır. Böyük istedad sahibi olmuş Səməd Vurğun, Mikayıl Müşfiq, Mirzə İbrahimov, Rəsul Rza, Mir Cəlal, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı və başqaları kimi yazıçı və şairlər sovet ideologiyasının əleyhinə çıxmadan, gerçək həyat və əsl insan haqqında ciddi ədəbiyyat yaratmağın yollarını tapmış, xalqın ictimai-mənəvi inkişafına kömək edən bədii əsərlər yazaraq, cəmiyyətdə obyektiv ictimai fikrin və yeni nəsillərin formalaşmasına xidmət göstərmişlər. Ana dilinin qorunub saxlanılmasında, milli adət-ənənələrin yaşadılmasında, vətənpərvərlik ideyalarının genişləndirilməsində sovet dövrü Azərbaycan ədəbiyyatının rolunu ayrıca qeyd etmək lazımdır. Bu mənada XX əsrdə sosializm dövrünün ideoloji meyillərə üstünlük verən Azərbaycan sovet ədəbiyyatı ilə yanaşı, mənsub olduğu xalqa və vətənin tərəqqisinə xidmət edən sovet dövrü Azərbaycan ədəbiyyatı da yaranmış və inkişaf etmişdir. Doğrudur, sovet rejiminin əsasən milli ruhlu yaradıcı ziyalılara qarşı tətbiq etdiyi qanlı 1937-ci ilin repressiya hadisəsi Azərbaycan yazıçılarını da qarsmış, Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Hacıbaba Nəzərli, Seyfulla Şamilov kimi yazıçı və şairlərin ən ağır cəzalara məhkum edilməsi və ya Sibirə sürgün olunması ilə ədəbiyyatda milli düşüncənin bədii inikası bir müddət arxa plana keçirilmiş, yaxud da çox örtülü şəkildə ifadə olunmuşdur. Lakin həmin proses əsasən 1941-1945-ci illərin Böyük Vətən müharibəsi hadisəsi ilə sanki unudulmuş, yaxud xeyli dərəcədə zəifləmişdir. Azərbaycan yazıçıları Böyük Vətən müharibəsinin ön mövqeyə çıxardığı vətənpərvərlik duyğularının təsvir və tərənnüm edilməsi tələbindən həm müharibə dövrünün təbliğatını aparmaq və həm də ümumiyyətlə, xalqımızın milli ruhunu dirçəltmək, azərbaycançılıq ideyalarını canlandırmaq baxımından bacarıqla istifadə etmişlər.

14 fevral 1956-cı ildə çağırılmış partiyanın XX Qurultayı sovet ədəbiyyatı və incəsənətinin yeniləşdirilməsində həlledici əhəmiyyətə malik olan "Xruşşov istiləşməsi"ni meydana çıxarmaqla, bütün sahələrdə olduğu kimi, bədii yaradıcılıq istiqamətində də əsaslı dəyişikliklərin hərəkətverici qüvvəsinə çevrilmişdir. İlya Erenburqun böyük ustalıqla elan etdiyi "Mülayimləşmə" prosesi

Sovetlər İttifaqının hər yerində, o cümlədən də Azərbaycan ədəbiyyatında da gerçək həyata və real insana doğru əhəmiyyətli bir prosesin yaranmasına ciddi təkan vermişdir. Bu zəmində meydana çıxan Azərbaycan ədəbiyyatının əllincilər nəsli: Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, İsa Hüseynov, İmran Qasımov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Qabil, Balaş Azəroğlu, Nəriman Həsənzadə, Həsən Seyidbəyli, İslam Səfərli, Əlfi Qasımov, Gülhüseyn Hüseynoğlu, Qasım Qasımzadə, Salam Qədirzadə, Hüseyn Abbaszadə, Hüseyn İbrahimov, Hüseyn Razi, Cəmşid Əmirov, Tofiq Mahmud, İlyas Tapdıq, Rüfət Əhmədzadə, Hikmət Ziya və başqaları ədəbiyyatda sovet ideologiyasından ayrılma proseslərinin başlanması yolunda ilk ciddi addımlarını atmışlar. “Əllincilər” ədəbi nəsli özündən əvvəlki ideoloji xarakterli ədəbiyyatla tam gerçəkçi xarakterə malik olan “Altmışıncılar” ədəbiyyatı arasında körpü funksiyasını yerinə yetirmişdir. Bu mənada “əllincilər” ədəbi nəsli Azərbaycan ədəbiyyatının “Aralıq ədəbi nəsli” missiyasını həyata keçirmişdir. Daha doğrusu, Azərbaycan ədəbiyyatının “Əllincilər” ədəbi nəsli yazdıqları bədii əsərləri ilə ədəbiyyatda sovet ideologiyasının buzlarını əritməyə, tilsimlərini sındırmağa başlamışlar. Məhz bu illərdə cəmiyyətdə və ədəbiyyatda İosif Stalin xofunun çəkilməsi prosesi yaşanmışdır. Nikita Xruşşovun XX Qurultayın tribunasından Stalinin şəxsiyyətinə pərəstişin aradan qaldırması haqqında dörd saat ayaqüstə etdiyi kəskin tənqidi ruhlu məruzə və qəbul edilmiş qərarlar cəmiyyət həyatının bütün sahələrində, o cümlədən, ədəbiyyat cəbhəsində də siyasi iqlimin mülayimləşdirilməsinə yol açmışdır. Bu isə öz növbəsində sovet ədəbiyyatının vahid yaradıcılıq metodu olan sosialist realizmi metodunun təkhakimiyyətli hökmranlığına ilk zərbə vurmuşdur. Nəticədə, siyasi-ideoloji mühitə daxil olmağa başlayan ılıq ab-hava ədəbiyyatda da özünün əks-sədasını tapmışdır ki, bu da öz növbəsində ədəbiyyatda hələlik fərqli bədii metodun olmasına, yeni ədəbi nəslin meydana çıxmasına səbəb olmuşdur. “Əllincilər” ədəbi nəsli məhz həmin siyasi-ideoloji şəraitdə yetişib formalaşmış yazıçı və şairlərdən ibarətdir. Bu ədəbi nəsil Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra formalaşdırılmış sosialist məzmunlu ədəbiyyatla XX əsrin altmışıncı illərində yaranmış milli ruhlu, gerçəkliyi ifadə edən “Altmışıncılar” arasında meydana çıxmış “Aralıq ədəbi nəsli”nin təzahürü demək idi. “Aralıq ədəbi nəsli”ni təmsil edən yazıçı və şairlərin həyat həqiqətlərini və insanın mənəvi aləmini əks etdirən bədii əsərləri “formaca milli, məzmunca sosialist” mahiyyəti daşıyan sosialist realizmi ədəbiyyatının ideoloji prinsiplərini sındırmış, həyat həqiqətlərinə doğru yeni toplu bir ədəbiyyatın ön mövqeyə çıxmasına meydan açmışdır. “Aralıq ədəbi nəsil” nümayiş etdirdiyi davamlı və dayanıqlı ədəbi-ictimai mövqe ilə tədricən sovet ədəbiyyatının vahid yaradıcılıq metodu olan sosialist realizminin ideoloji buzlarının əridilməsinə, bu yaradıcılıq metodunun nisbətən arxa plana keçirilməsinə və ya ən azı, zəifləndirilməsinə nail ola bilmişlər. Bu proses son nəticədə sosialist realizminin zahiri fon kimi saxlanılması şəraitində formaca da, məzmunca da milli ədəbiyyatın yaradılmasına müəyyən üfüqlər açmışdır. Xalq şairi Rəsul Rzanın şeirlər silsiləsini “Pəncərəmə düşən işıq” adı ilə təqdim etməsi və Nəbi Xəzrinin yeni sosialist şəhəri olan Sumqayıt sənaye şəhərinin salınması və inkişafına həsr edilmiş poemasını “Üfüqlərdən-üfüqlərə” adlandırması yalnız sosializm quruculuğu prosesləri ilə bağlı olmayıb, həm də bəlkə də daha çox sovetlər ittifaqı miqyasında “Xruşşov mülayimləşməsi” prosesinin açdığı yeni imkanların ədəbiyyatdakı əks-sədası idi.

Doğrudur, “Əllincilər” adlanan “Aralıq ədəbi nəsil” yazıçılarının yaradıcılığında, xüsusən nəsr əsərlərində sovet quruluşuna aid “kolxoz”, “partkom”, “komsomol”, “pioner” və sair kimi sözlər tam aradan qaldırılmamışdır. Lakin bədii əsərlərdə həmin ifadələrdən əksər hallarda hadisələrin cərəyan etdiyi yeri, obrazların daşıdıqları rəsmi vəzifələrin adlarını, yaxud yaş həddini göstərmək üçün istifadə olunmuşdur. Bəzən isə yazıçı və şairlər sovet siyasi rejiminə aid olan bəzi sözlərdən istifadə etməklə əsərlərin də təsvir etdikləri həyat həqiqətlərini senzuranın diqqətindən yayındırmaq məqsədilə faydalanmışlar. “Əllincilər”in – “Aralıq ədəbi nəsil”in yaradıcılığında adları çəkilmiş siyasi terminlərin heç biri təbliğ olunmamışdır. “Əllincilər”in yaradıcılığında kommunist partiyasını kolxoz təsərrüat sistemini mədh edən komsomol və ya pioner hərəkatından müsbət və ya

mənfi mənada söz açan konkret bədii əsərlər yox dərəcəsindədir. Bu ədəbi nəsil sovet dövlətinə loyal münasibət bəsləməklə, diqqəti siyasi proseslərdən yayındırmaqla, həyata və insana doğru ədəbi yürüşə çıxmağa istiqamətləndirilən hərəkatı mümkün olduqca genişləndirməyə və dərinləşdirməyə çalışmışdır.

"Əllincilər" ədəbi nəsli özünü ən çox poeziyada büruzə vermişdir. Şair Bəxtiyar Vahabzadənin (1925-2009) elan etdiyi "əgər sevirsənsə ayaq səsindən, gərək biləsən ki, Bəxtiyar gəlir", – misralarında ifadə olunan çağırışın yalnız sevgiliyə yox, daha çox mövcud cəmiyyətə, ədəbi mühitə həyat nəfəsli və vətənpərvər ruhlu yaradıcı qüvvələrin gəlməsinin parolu kimi səslənmişdir. Bütövlükdə sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında dövrün özünün hazırlayıb yetişdirdiyi yeni ədəbi nəslin – "Əllincilər"in ayaq səsləri eşidilməyə başlamışdır. Bəxtiyar Vahabzadənin İosif Stalinin ölümündən bir az sonra, XX Qurultaydan azca əvvəl yazıb regionda – "Şəki fəhləsi" qəzetində çap etdirdiyi məşhur "Gülüstan" poeması və bunun ardınca səsləndirilmiş "Ana dili" şeiri dövrün ədəbiyyatını təmsil edənlərin hansı cəsarətin sahibi olduqlarını cəmiyyətə çatdırmışdır. Xəlil Rzanın (1932-1994) "Afrikanın səsi" şeiri ilə qoca qitə bəhanə edilərək, Sovetlər İttifaqında azadlıq ideyalarının olmaması tezisi ədəbi mühitin gündəminə gətirilmişdir. Məmməd İbrahimin – Məmməd Arazın böyük oxucu mühitində sürətlə yayılmış "Araz axır" poeması Azərbaycan ədəbiyyatında ayrılıq və bütövlük ideyalarının genişləndirməkdə olduğunu təsdiq etmişdir. Nəriman Həsənzadənin (1931) zahirən sakit görünən misralarının alt qatındakı köz mühitin soyuq ab-havasının tədricən istiləşdirilməsinə təkan verə bilmişdir. Əhməd Cəminin (1913-1977) şeir kitablarının birinin "Mənim azad torpağım" adlandırılmasının dərin qatlarında milli-mənəvi azadlıq düşüncəsi ifadə olunmuşdur. Eyni zamanda Zeynal Cabbarzadənin (1920-1977) "Bahar gəlir" kitabı da təkcə təbiət hadisəsi olan yaz fəslinin gəlməsini yox, həm də ictimai-əbədi mühitə ılıq bir ab-havanın gəlməsi fikrinin ifadə edirdi.

Beləliklə, XX əsrin əllinci illərinin poeziyası sovet dövrü Azərbaycan ədəbiyyatının aydın vətəndaşlıq mövqeyinin həyata doğru proseslərin genişləndirilməsi ədəbi mərhələsinə çevrilmişdir. Məhz bu dövrdən etibarən tədricən Azərbaycan ədəbiyyatından (1925-2009) Stalin xofunu çıxarmış, həyatı və insan mənəviyyatını təbii şəkildə əks etdirən yeni tipli ədəbiyyata yol açmışdır. Bəxtiyar Vahabzadənin "Bahar" (1950), "Çinar" (1956), "Sadə adamlar" (1956), "Aylı gecə" (1958), "Şəbi-hicran" (1959), Məmməd Arazın (1933-2004) "Sevgi nəğməsi", "Anamdan yadigar nəğmələr", Xəlil Rzanın "Bahar gəlir" (1957), "Sevən gözlər" (1959), Cabir Novruzun (1933-2002) "İnsan məhəbbəti", Qabilin (1926-2007) "Səhər açılır", "Sahil işıqları", "Məhparə", "Mənim mavi Xəzərim", "Küləkli havalarda", Qasım Qasımzadənin (1923-1993) "Bizim kənd", "Bizim səhər", "Bizim dağlar", "Ürək döyüntüləri" kitabları, Xanımana Əlibəylinin (1920-2007) səmimi uşaq şeirlərində və başqa şairlərin onlarla bədii əsərləri Azərbaycanda "Mülayimləşmə" dövründə ideologiyadan uzaqlaşmaq proseslərinin yaratdığı ədəbiyyatın canlı təzahürləri idi. "Əllincilər"in poeziyasında çox işlənən "Bahar gəlir", "Küləkli havalarda", "Səhər açılır" kimi adlar və ifadələr təbiət hadisəsindən çox cəmiyyətdə gedən mülayimləşmə proseslərinin poetik ifadəsi demək idi. Eyni zamanda şairlərin kitablarının adları kimi təqdim etdikləri "İnsan məhəbbəti", "Sadə adamlar", "Sevgi nəğməsi", "Ürək döyüntüləri" kimi sözlər isə "Əllincilər"in insan mənəviyyatına doğru dönüşünü" ifadə edirdi. Beləliklə, "Aralıq ədəbi nəslin" poeziyası Azərbaycan şeirini XX əsrin otuz-qırxıncı illərin ideologiyayönlü poeziyasından "Altmışıncılar"ın adi həyat hadisələrinin və sadə adamların mənəvi aləminin şeiriyyətinə doğru aparmaq funksiyasını böyük şərəflə daşımışdır.

### Əsas hissə / *Main part*

Bədii nəsr sahəsində də XX əsrin əllinci illərində Azərbaycan ədəbiyyatının yeni nəsli ədəbi mühitin qapılarını döyməyə başlamışdır. Böyük Vətən müharibəsinə və kolxoz kəndinə birmənalı baxmayan bu yeni ədəbi nəsil ədəbiyyatda və mətbuatda ideologiya və gerçəklik münasibətlərində

balansın dəyişməsinə öz təsirini göstərmişdir. İsa Hüseynovun (1928-2015) "Bizim qızlar" (1953), "Dan ulduzu" (1955), "Yanar ürək" (1960) povestlərində kolxoz quruluşu şəraitində sosializm yarışından deyil, insan talelərindən, mənəvi münasibətlərdən, çətinliklərdən və hətta problemlərdən də söz açılması dövrün ədəbi tənqidini çaşdırmışdır. Qırğız ədəbiyyatında Çingiz Aytmatovun (1928-2008) "Cəmilə", "İlk müəllim", "Əlvida, gülsarı", "Ana tarla" kimi povestlərində əks etdirilən adi həyat materialı və sadə insanların mənəvi dünyasının təqdimatı Azərbaycan ədəbiyyatında İsa Hüseynovun ilk hekayələri və povestlərində qabarıq şəkildə ifadə olunmuşdur. Bu yazıçılar: Çingiz Aytmatov və İsa Hüseynov bir-birilərinin əsərlərindən yox, hər ikisi, həm də onların mənsub olduqları ədəbi nəsil bütövlükdə sovet cəmiyyətində baş vermiş gözlənilməz siyasi-ideoloji dönüşdən təsirlənərək, yaradıcı şəkildə faydalanaraq, fərqli coğrafiyalarda həyata və insana münasibətdə oxşar bədii yanaşma ilə gerçəkliyi, həyat həqiqətlərini əks etdirən orijinal nəsr əsərləri yaratmışdır. İsmayıl Şıxlının (1919-1995) "Kerç sularında" (1950), "Ayrılan yollar" (1957) romanlarında da Böyük Vətən müharibəsinin əhvalatları vəsf edilmək tonu ilə yox, müəyyən dərəcədə təftiş olunmaq intonasiyası ilə təqdim edilmişdir.

Həsən Seyidbəylinin (1920-1980) "Kənd həkimi" (1950), "Kür sahillərində" (1953), "Telefonçu qız" (1960), "Cəbhədən-cəbhəyə" (1961) və sair nəsr əsərlərində də, həqiqətən, Azərbaycan ədəbiyyatının cəbhədən-cəbhəyə, yəni ideoloji sxemləri əsasında yaradılan ədəbiyyat cəbhəsindən həyat həqiqətlərinin təsvir edilməsi cəbhəsinə keçdiyini real şəkildə ifadə edən aydın gerçəkçi mövqe, canlı və təsirli səhnələr, yaddaqalan bədii obrazlar yaradılmışdır. Əlfi Qasımovun (1927-1985) qış nağılına, Salam Qədirzadənin (1923-1987) lətifələrə bənzəyən, oxuculara çox yaxın dildə və ovqatda yazılmış nəsr əsərləri ədəbiyyatda yeni axının mövqelərinin möhkəmləndirilməsinə təkan vermişdir.

Nəhayət, geniş mənada sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında uzun sürən fasilədən sonra satirik əsərlər mətbuatda daha davamlı şəkildə gözə dəymişdir. Salam Qədirzadə ilə yanaşı, Rüfət Əhmədzadə (1933-1988), Hikmət Ziya (1929-1995), Rüfət Zəbioğlu (1932-1983) və başqalarının müxtəlif satira janrlarında yaratdıqları əsərlərdə sovet cəmiyyətində baş verən "bəzi" nöqsanlardan bəhs edilmişdir. Hətta Cəmşid Əmirovun (1918-1982) "Sahil əməliyyatı", "Brilyant məsələsi", "Qara Volqa" kimi romanları ilə Azərbaycan ədəbiyyatında detektiv ədəbiyyatın ilk yaddaqalan nümunələrinin meydana çıxmasında da XX əsrin əllinci illərində sovet cəmiyyətində gedən ictimai-ədəbi proseslər mühüm rol oynamışdır. Satirik və detektiv ədəbiyyatın meydanının genişləndirilməsi ədəbiyyatın həyatın və cəmiyyətin dərinliklərinə, kəskin ictimai problemlərə nüfuz etməsinə yol açmışdır. Bundan başqa, Azərbaycan ədəbiyyatında fantastik ədəbiyyatın da ilk yaradıcıları "Aralıq ədəbi nəslin" nümayəndələri olmuşlar. Emin Mahmudovun (1925-2000) "Muğanda qütb parıltısı", "Kainat gəmisi", "Veneranın göyləri od içində", "Qeyb olmuş səhər" və sair fantastik əsərləri Azərbaycan ədəbiyyatının hüdudlarını, necə deyərlər, yerdən-göyə qədər genişləndirmişdir.

Detektiv və fantastik ədəbiyyat kimi məhz əllinci illərdə meydana çıxmış mənsur şeir də "Mülayimləşmə" dövrünün əks-sədasında doğulmuş yeni tipli ədəbiyyat nümunəsi idi. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında mənsur şeir nümunələri yaradılsa da, sovet hakimiyyəti illərində, xüsusən, əllinci illərə qədər bu janrda bədii əsərlər yox dərəcəsində idi. Bu mənada Gülhüseyn Hüseynoğlunun (1923-) mənsur şeirləri "Aralıq ədəbi nəsil"in Azərbaycan ədəbiyyatına gətirdiyi yeniliklərdən idi. Doğrudur, Gülhüseyn Hüseynoğlu "Bənövşə əfsanəsi" adlı ilk mənsur şeirini 1946-cı ildə yazıb dövri mətbuatda çap etdirmişdi [2, s.366]. Lakin o əsl mənsur şeir müəllifi kimi XX əsrin əllinci illərində tanınmışdır. Gülhüseyn Hüseynoğlunun "Xəzərin qoynunda" (1957), "Bir ömrün çıraqları" (1958) kitablarındakı hekayələri və povestləri Azərbaycan ədəbiyyatında lirik-psixoloji nəsrin mükəmməl örnəkləri idi. Onun əsasən əllinci illərdə yazdığı mənsur şeirlərdən ibarət olan "Etiraf" adlı kitabında (1961) toplanmış mənsur şeirlər Azərbaycan ədəbiyyatında açılmış "yeni nəfəs"in orijinal bədii təzahürləri idi. Gülhüseyn Hüseynoğlunun

mənsur şeirləri həyatın adi görünən canlı lövhələrinin, insanın mənəvi aləminin təbii və ritmik, ahəngdar təqdimatından ibarət idi. Şair ürəkli yazıçının az sonra, 1963-cü ildə çap olunmuş "Nigarançılığın sonu" kitabındakı mənsur şeirlər Azərbaycan ədəbiyyatında tam vətəndaşlıq hüququ qazanmışdır. Bu mənada kitabın adındakı "Nigarançılığın sonu" ifadəsi sadəcə olaraq bir janrın deyil, bütövlüklə mənsur şeirlər də daxil olmaqla, artıq Azərbaycan ədəbiyyatının bütün janrlarında yaranan bədii əsərlərin ideoloji buxovlardan azad edildiyinə qəti inamın təsdiqi demək idi.

İmran Qasımovun (1918-1981), Əfqanın (1929-2022), Əlfi Qasımovun, Hüseyn İbrahimovun (1919-2008), Çingiz Hüseynovun (1929-2024), Hüseyn Abbaszadənin (1922-2007), Əbülfəz Abbasquliyevin (1914-1985), Ələviyyə Babayevanın (1921-2014), Gəray Fəzlinin (1925-1995), Xalidə Hasilovanın (1920-1996) və başqalarının nəsr əsərləri ideologiyadan uzaqlaşma və gerçəkliyə doğru ədəbiyyat dövrünün reallıqlarını əks etdirir. Bütün bunlar XX əsrin əllinci illərində artıq Azərbaycan ədəbiyyatına yeni bir ədəbi dalğanın gəldiyini de-fakto nümayiş etdirirdi. Bu, Böyük Vətən müharibəsi nəticəsində bir qədər yumşalmış siyasi rejimdən sonra əllinci illərdə Sovetlər İttifaqında baş vermiş dəyişikliklər dalğasında ədəbiyyata və incəsənətə gələn yeni axının təzahürləri idi. Bu mənada "Əllincilər" ədəbiyyatı özündən əvvəlki ideoloji xarakterli ədəbi istiqamətin yeni siyasi ab-havada keçmişə çevrilməkdə olduğunu ortaya qoymuşdur. İkincisi, "Əllincilər" ədəbi nəsli ədəbiyyatda həyata və insanın mənəvi dünyasına doğru ciddi bir dönüş etmişdir. Üçüncüsü isə məhz "Əllincilər"in yaradıcılığı ilə onlardan sonra Azərbaycan ədəbiyyatına "Altmışıncılar" adlı yeni ədəbi nəslin gəlməsi üçün zəmin hazırlanmışdır. Bu mənada Azərbaycan ədəbiyyatının "Əllincilər" ədəbi nəsli özlərindən əvvəlki ideologiyanın təsiri ilə yaranan ədəbiyyatla onlardan sonra ədəbiyyata gələn ideologiyadan uzaq olan ədəbiyyatın yaradıcıları olan – "Altmışıncılar" arasında olub, ağsaqqal nəsillə cavan ədəbi nəslin münasibətlərində keçid funksiyasını yerinə yetirmişdir. Bu baxımdan "Əllincilər" funksiyalarına görə mahiyyət etibarilə Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil" missiyasını həyata keçirmişlər. "Aralıq ədəbi nəsil" sovet cəmiyyətinin sərt ideoloji prinsiplərinin ilk buzqıranları missiyasını yerinə yetirmişlər. İdeoloji baryerlərin tədricən aradan qaldırılması prosesi incəsənətin ayrı-ayrı sahələri ilə müqayisədə ədəbiyyatda daha çox müşahidə edilmişdir. Bu cəhətdən Azərbaycan yazıçı və şairləri keçmiş Sovetlər İttifaqında təmsil olunan digər müttəfiq respublikalarda yaşayıb-yaratmış yaradıcı qüvvələrdən qabaqda olmuşlar. Azərbaycanın Xalq şairi, akademik Səməd Vurğunun 1954-cü ildə çağırılmış Sovet Yazıçılarının II Qurultayında məruzə ilə çıxış etməsi də Azərbaycan ədəbiyyatının həmin dövrdə yeni ədəbiyyata doğru mübarizədə qazandığı özünəməxsus böyük nüfuzun göstəricilərindən biri idi.

Beləliklə, Azərbaycan ədəbiyyatında sovet ideologiyasından aralanma, uzaqlaşma proseslərini yaşayan və həyata, gerçəkliyə, insana, mənəviyyata doğru dönüş etməkdə olan "Aralıq ədəbi nəsil" meydana çıxmış və ədəbiyyatın inkişafında yeni tarixi dövr başlanmışdır. Bu prosesi Azərbaycan ədəbiyyatının tarixi dönüş dövrü də adlandırmaq olar. Özlərindən sonra gələn Azərbaycan "altmışıncılar"ı ədəbi nəsli üçün ədəbiyyatda zəmin və meydan hazırlamaları da "Əllincilər"in – "Aralıq ədəbi nəsil" yazıçı və şairlərin xidməti idi.

Bununla belə, Azərbaycan ədəbiyyatşünaslıq elmində "altmışıncılar"dan kifayət qədər yazılsa da, "Aralıq ədəbi nəsil" anlayışı hələlik yeni nəzəri baxış kimi elmi-ədəbi mühitə ilk addımlarını atmaqdadır. XX əsr Azərbaycan ədəbiyyatında da, sovet dövrü Azərbaycan ədəbiyyatında da "Əllincilər"in – "Aralıq ədəbi nəslin" mühüm yeri və rolu olmuşdur. Ədəbi-tarix dönüş proseslərini, "Aralıq ədəbi nəsli"n fəaliyyətini və xidmətlərini elmi surətdə araşdırıb dəyərləndirmədən son yüzilliyin ədəbiyyatına obyektiv qiymət vermək çətin olar. "Aralıq ədəbi nəsil" anlayışı və bu ədəbi nəslin özünəməxsus xidmətləri, Azərbaycan ədəbiyyatındakı yeri və mövqeyi haqqında geniş və sistemli tədqiqatların aparılmasına ehtiyac vardır.

***

Məlum olduğu kimi, geniş mənada sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun təsir dairəsinin aradan qaldırılmasında "Altmışıncılar" ədəbi nəsli həlledici rol oynamışdır. Yaxşı mənada Sovetlər İttifaqının ayrı-ayrı müttəfiq respublikalarında "peyda olan" bu yeni ədəbi nəsil ədəbiyyatın inkişafında xüsusi bir mərhələnin açılmasını qaçılmaz bir hala gətirmişdir. Sovet ədəbiyyatının yeni nəsli kimi bədii yaradıcılıq meydanına qədəm qoymuş Aleksandr Qaliç, Vladimir Vısotski, Yevgeni Yevtuşenko, Andrey Voznesenski, Bella Axmadulina, İosif Brodski, Bulat Okucava, Boris Slutski, Fazil İskəndər, Valentin Rasputin, Vasili Şukşin və onlarla başqalarının çap etdirdikləri əsərlərlə ədəbiyyatda kommunist ideologiyasının təbliğinə birdəfəlik fatihə oxunmuşdur. Azərbaycanda da ədəbi fikrin sovet ideologiyasından ayrılması üzərində tam və qəti qələbəni qazanmaq missiyasını bizim ölkənin altmışıncıları – Anar, Elçin, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədli, Yusif Səmədoğlu, İsi Məlikzadə, Ələkbər Salahzadə, Fikrət Sadıq, İsa İsmayılzadə, Çingiz Ələkbərzadə, Vaqif Səmədoğlu və başqaları həyata keçirmişlər. Azərbaycan altmışıncıları ölkəmizdə real azərbaycançı və əsl gerçəkçi ədəbiyyatın yeni tarixi mərhələsini yaratmağa nail oldular. Bu ədəbi nəslin nümayəndələrindən hər birinin Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm xidmətləri vardır.

Xalq yazıçısı Anarın 1960-cı ildə "Azərbaycan" jurnalının on ikinci sayında çap olunmuş iki hekayəsi – "Bayram həsrətində" və "Keçən ilin son gecəsi" ilə Azərbaycanda altmışıncılığın ilk təməlləri atılmış oldu. Bu hekayələr 1960-cı ilin dekabr ayında Moskvada çap olunan "Yunost" jurnalının on ikinci sayında Stanislav Rassadin adlı Moskva Dövlət Universitetinin məzunu olan bir müəllifin "Altmışıncılar" "Gənc müasirimiz haqqında kitab" adlı məqaləsi ilə eyni vaxtda baş vermiş yeni hadisə idi. "Altmışıncılar" sözünün ilk dəfə mətbuatda elan olunduğu həmin anlarda Azərbaycan ədəbiyyatı Anarın hekayələri vasitəsilə yeni "eksiztensialist insan modelini özünəməxsus şəkildə əks etdirən" [3, s.283] yeni ədəbi nəslin artıq meydanda olmasının parolunu vermişdir.

"Azərbaycan" jurnalının təqdim etdiyi "Bayram həsrətində" və "Keçən ilin son gecəsi" hekayələri gerçək həqiqətləri və sadə insanların adi həyatını və mənəvi dünyasını oxuculara çatdırmaqla "Altmışıncılar" ədəbi nəslinin yeni tipli ədəbiyyatının anonsu vermişdir. "Bayram həsrətində" hekayəsi Azərbaycan ədəbiyyatında ideoloji sxemlərdən uzaq olan, "kiçik adam"lara aid sadə əhvalatlar vasitəsilə gerçək mətləbləri təsvir edən yeni tipli ədəbiyyatın yaranması həsrətinə son qoyan yaddaqalan bədii nümunə oldu. Azərbaycan oxucuları Anarın "Bayram həsrətində" hekayəsi ilə oxucuların həsrətlə gözlədikləri sadə dildə yazılmış gerçək bir həyat hekayəsi ilə tanış ola bildilər. "Keçən ilin son gecəsi" hekayəsi də, obrazlı şəkildə desək, sosialist realizmi ədəbiyyatının özünün sonuncu gecəsini yaşamaqda olduğunu nəzərə çarpdırdı.

Keçən altmış ildən artıq bir dövr ərzində Xalq yazıçısı Anar (1938) Azərbaycan hekayəsinin mükəmməl örnəklərini yaratmışdır. Heç tərəddüd etmədən, bu hekayələrdən bir çoxunu və əslində onların mütləq əksəriyyətini ümumiyyətlə Azərbaycan və dünya hekayəçiliyinin mükəmməl örnəkləri kimi qiymətləndirmək olar. Anarın "Yaxşı padşahın nağılı" hekayəsi (1970) keçmiş sovet cəmiyyətinin alleqoriyası kimi meydana çıxmış sərt tənqidi realist əsərdir. Böyük cəsarətlə və uzaqgörənliklə yaradılmış bu hekayədə sovet cəmiyyətinin mənəvi-siyasi çöküşü və iflasının reallıqları məharətlə əks etdirilmişdir. Türk ədəbiyyatı Vəqfinin "Yaxşı padşahın nağılı" hekayəsini 2018-ci ildə İstanbulda türk, rus, özbək, qazax, türkmən, qırğız, tatar, başqırd, qaqauz dillərində ayrıca kitab kimi nəşr edib geniş dairədə yayması, heç şübhəsiz, bu hekayədə qaldırılan problemlərin aktuallığı və müasirliyinə verilmiş yüksək qiymətin ifadəsidir. Həqiqətən də "Yaxşı padşahın nağılı" bir hekayədə ciddi bir roman mövzusunu əks etdirən mükəmməl bədii əsərdir.

Anarın XX əsrin altmış-səksəninci illərində çap olunmuş digər hekayələri də dərin ictimai məzmununa və özünəməxsus sənətkarlıq xüsusiyyətlərinə görə böyük ənənələri olan Azərbaycan

hekayəçiliyinin qızıl fonduna vəsiqə almış kamil sənət örnəkləridir. "Mən, sən, o və telefon" hekayəsi cəmiyyətdəki tənhalaşma və eyniləşmə proseslərinin zahirən adi görünən düşündürücü hadisələr vasitəsilə təqdim olunmasının təkrarsız-bənzərsiz nümunəsidir. "Asılqanda işləyən qadın" hekayəsi də, adından göründüyü kimi, sadə adamların hekayəti kimi yaradılmışdır. Məşhur "Gürcü familiyası" hekayəsi məcazi mənada yeni dövr Azərbaycan hekayəsinin soyadı kimi ümumiləşdirilməyə layiq olan yaddaqalan, təsirli nəsr əsəridir. Anarın "Molla Nəsrəddin – 66" və "Molla Nəsrəddin – 86" satirik hekayələr silsiləsi tənqidi realist və modernist hekayəçiliyin orijinal təzahürləri kimi kiçik janrın böyük örnəkləri olaraq Azərbaycan hekayəsinin tarixində yeni hadisə idi.

Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin"indən Anarın "Molla Nəsrəddin–66"sına keçid Azərbaycan ədəbiyyatının özünəqayıdışının və yeni rakursda inkişaf etdirilməsinin mümkünlüyünün isbatı idi. Anarın "Zarafatsız" adlandırdığı hekayədə təsvir edilən ciddi hadisələri o zaman zarafatyana şəkildə də demək risk tələb edirdi. Anar isə sadə və dönməz bir ədəbi təmkinlə "Gülməşəkər kəndinin sabahı"ndakı xalqdan uzaq planları – filanları, "Biz tənqid edəndən sonra" hekayəsi ilə üstü açılan yalanları cəmiyyətə çatdırmaqda davam etdirmişdir. Anarın hekayə kimi təqdim etdiyi "Bildiriş", "Elanlar", "Düzəliş", "Bizim müsahibə", "Biz tənqid edəndən sonra" əslində, həm də yeni tarixi mərhələnin satirik ədəbiyyatının orijinal janrları olaraq nəzərə çarpdırılmışdır. Beləliklə, Anar Azərbaycan ədəbiyyatının ideya-məzmunca olduğu kimi, sənətkarlıq baxımından da yeniləşdirilməsinə nail olmuşdur.

"Molla Nəsrəddin – 86" satirik hekayələr silsiləsi təkcə Anarın yaradıcılığında deyil, geniş mənada Azərbaycan cəmiyyəti və ədəbiyyatının həyatında mühüm bir hadisə kimi qarşılanmışdır. Belə ki, "Molla Nəsrəddin – 66"-da mövcud cəmiyyətin "təmiri" məsələlərini qələmə alan yazıçı "Molla Nəsrəddin – 86" ilə sovet siyasi sisteminin öz oxu ətrafından çıxarılması məsələlərini yüksək vətəndaşlıq mövqeyindən təsvir etmişdir. "Molla Nəsrəddin – 86"dakı aşağıdakı sözlər dövlət müstəqilliyi ərəfəsində cəmiyyətin dəyişdirilməsinə təsir göstərən yüksək vətəndaşlıq ruhunda əsərlərin yazılması zərurətinin gəlib çatdığını ədəbi-siyasi mühitin gündəminə gətirir: "Salam, Molla Nəsrəddin babam!.. Bu dəm – əsrin qurtar-qurtarında papağımızı qabağımıza qoyub fikirləşəndə, götür-qoy edəndə, ... görürük ki, sənsiz işimiz aşmayacaq. Çünki gülmüşük də, sevinmişik də, fərəhlənmişik də... Amma bəzən nəyə güldüyümüzü əməlli-başlı başa düşməmişik. ...Hələ baxaq, gözləyək, görək axırı necə olur? Nə deyirəm, babam, baxaq, görək, amma gözləməyək. Bu yolda iş gərəkdir, qurmalını qurmalıyıq, vurmalını vurmalıyıq, gülməliyə gülməliyik. Qolumuzu çırmalayıb işi dəyişməsək, doğrudan da, heç nə dəyişməyəcək – köhnə hamam, köhnə tas..." [1, s.284-285]

Anarın yaradıcılığında ilk ən böyük hadisə olan "Ağ liman" povesti – ədəbiyyatda adi əhvalatlara və sadə insanlara doğru dönüşün manifesti sayıla bilər. "Ağ liman" – Məmməd Nəsirin hekayəsi, Nemətin povesti, Təhminə ilə Zaurun romanıdır. Əslində, "Ağ liman" Azərbaycan ədəbiyyatının mövcud epoxada yan aldığı yeni və fərqli bir "liman" idi. Nəhayət, "Ağ liman" – Anarın fərqli bir yazıçı kimi özünütəsdiqinin möhürüdür. Azərbaycan "Altmışıncılar"ının da yeni yaradıcı bir nəsil kimi özünütəsdiqində Anarın əsərlərinin, xüsusən "Ağ liman" povestinin mühüm rolu olmuşdur. Bundan sonra Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı ilə Azərbaycan ədəbiyyatı öz inkişaf yolunda yeni bir "mərtəbə" qazanmış oldu. Doğrudur, "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əslində "Ağ liman"ın üzərində ucaldılmış bir mərtəbədir. Anar bu çoxmərtəbəli mühitə Spartak, Zivər xanım, rejissor Muxtar, restoran müdiri Nadir və başqaları kimi yeni obrazları da daxil etməklə, dairəni xeyli dərəcədə genişləndirmişdir. Bakıda Beşmərtəbə adı ilə tanınan adi bir bina bu romanda darıxan, tənha, mənəvi çırpıntılar içərisində yaşayan insanların gündəlik qayğılarının, narahatlıqlarının geniş planda hekayəti, yazıçının isə estetik idealının romanıdır. Anarın "Təhminə və Zaur" kimi qəhrəmanları ilə "əllincilərin" – "Aralıq ədəbi nəslin" Azərbaycan ədəbiyyatına gətirdikləri həyat nəfəsli obrazlar inkişaf edərək, həyatın adiliklərinin daşıyıcısı olan obrazlara çevrilmiş və prosesi dərinləşdirmiş və tamamlamışdır. Anar isə hər yeni

əsəri ilə yaradıcılığındakı adi əhvalatlar və sadə adamlar silsiləsini genişləndirmiş və dərinləşdirmişdir. Onun "Dantenin yubileyi" povesti, "Şəhərin yay günləri" pyesi və dövlət müstəqilliyi dövrünə qədər yazdığı hekayələri "Aralıq ədəbi nəsil"lə başlanan proseslər yeni ədəbi mərhələ səviyyəsinə qaldırılmışdır. Anarın "Ağ qoç, qara qoç" romanı Azərbaycan cəmiyyətində və həm də ədəbiyyatda keçid proseslərinin güzgüsüdür. Anarın simasında yalnız bir yazıçı yox, bütövlükdə Azərbaycan ədəbiyyatı və xalqımız "Ağ qoç, qara qoç" əsəri ilə keçid proseslərini adlayaraq, müstəqillik epoxasına qədəm qoymuşdur. "Ağ qoç, qara qoç" Azərbaycanın parçalanması təhlükəsinin həyəcan təbili, ölkəmizdə birlik və bütövlüyə çağırışın üvertürasıdır. Anar "Göz muncuğu" povesti ilə dövlət müstəqilliyinin göz bəbəyi kimi qoruyub saxlanılmasının hər kəsin ən müqəddəs vəzifəsi olması haqqında vətəndaş narahatlığını ifadə etmişdir. Son vaxtlarda 2024-cü ilin hekayəsi kimi meydana çıxmış "Qabardan qalan adam" hekayəsində Anar müstəqillik dövründə dünyaya açılan Azərbaycanın yeni münasibətlər sistemində xalqımızın əldə etdiyi imkanları və həm də milli-mənəvi dəyərlərdən uzaqlaşma proseslərinin gətirə biləcəyi təhlükələri diqqət mərkəzinə çəkməklə oxucunu müasir dövrün çağırışlarına hazırlamaq missiyasını həyata keçirmişdir.

Azərbaycan ədəbiyyatının "Altmışıncılar" hərəkatında özünəməxsus mühüm yeri olan Xalq yazıçısı Elçinin (1943-2025) əsərlərinin də xüsusi yeri və əhəmiyyəti vardır. Yazıçının 1966-cı ildə çap etdirdiyi "Min gecədən biri" kitabında toplanan hekayələr ədəbiyyatda adi adamların sadə və aydın süjet əsasında təqdim olunmuş orijinal və təsirli hekayəti idi. Kitabın adındakı "Min gecədən biri" anlayışı da Elçinin əslində "Altmışıncılar" ədəbi nəslinin yaradıcılığı üçün səciyyəvi olan adi günlərin və sıravi adamların hekayəsini yaratmaq qayəsinin ifadəsidir. Elçin bu prosesin miqyasını "Sos" və "Açıq pəncərə" prosesləri ilə daha da genişləndirmişdir. "Sos" povesti Elçinin yaradıcılığının başlanğıc mərhələsində sovet ədəbiyyatı anlayışının süquta məruz qalmasının nidası idi. Obrazlı mənada "Açıq pəncərə" povesti Elçinin yeni ədəbiyyata, müasir insana və yeni həyata açdığı pəncərəni də simvollaşdırır. Əlbəttə, Elçinin "Altmışıncı"lar ədəbiyyatındakı əsas yeri və mövqeyi tam halda yazıçının 1973-cü ildə çap etdirdiyi "Gümüşü, narıncı, məxməri" kitabı ilə qəti şəkildə təsdiq olunmuşdur. Bu hekayələr artıq Azərbaycan altmışıncılarının sözün əsl mənasında yeni ədəbiyyat yaratmaq sahəsindəki böyük istedadının göstəricisi kimi diqqəti cəlb edirdi. Elçinin "Bu dünyadan qatarlar keçər" kitabındakı hekayələr sadəcə, Elçinin yaradıcılığında deyil, bütövlükdə Azərbaycan ədəbiyyatının yeni tarixi dövrünün hadisəsi idi. Elçin artıq ədəbiyyata həyatın "Gümüşü, narıncı, məxməri" çalarlarını gətirmiş, Abşeron silsiləsində olan bənzərsiz obrazları ilə özünün möhürünü vurmuş istedadlı bir yazıçı olduğunu isbat etmişdir. "Balaqədeşin ilk məhəbbəti", "Balaqədeşin toy hamamı" hekayələri ədəbiyyatın mirvarisi sayılan hekayə janrının Azərbaycan ədəbiyyatındakı nadir sənət inciləridir. Balaqədeş obrazı zahirən satirik tiplər kimi görünən adi insanların daxili-mənəvi dünyasının işığını tapıb üzə çıxaran Elçinin ədəbiyyatdakı bədii kəşfidir.

Elçinin XX əsrin yetmiş-səksəninci illərində yazdığı "Bir görüşün tarixçəsi" romanı detektiv ədəbiyyatın yeni təzahürü kimi meydana çıxmışdır. Yazıçı bu əsərlə cəmiyyətdəki ictimai problemləri detektiv ədəbiyyat vasitəsilə ifadə etməklə daha cəlbedici bədii formada xalqa çatdırmağı bacarmışdır. Elçinin "Mahmud və Məryəm" (1983), "Ağ dəvə" (1985), "Ölüm hökmü" (1989) romanları həyatın adiliklərindən çox, cəmiyyətin dərinliklərini əks etdirən, görünməyən qatlara nüfuz edən, beləliklə, Azərbaycan ədəbiyyatının qarşısında yeni səhifələr, geniş üfüqlər açan əsərlər kimi "Altmışıncılar" ədəbiyyatına yeni zirvələr qazandırmışdır. Elçin məşhur "Baş" tarixi romanında (2016) Azərbaycan xalqının tarixi taleyi ilə əlaqədar mühüm ictimai-siyasi prosesləri böyük istedadla əks etdirmiş, XIX əsrin böyük bir dövrünün hadisələri və şəxsiyyətlərinin timsalında müstəmləkəçilik siyasətinin ağır və mürəkkəb təzahürlərini nəzərə çatdırmışdır. Elçinin çətin və mürəkkəb bir dövrdə Azərbaycana rəhbərlik etmiş "Mir Cəfər Bağırov kim idi? Şəxsiyyəti, əməli və taleyi" (2024) adlı siyasi-tarixi əsərində XX əsrdə həm sovet dövlətinin və həm də

Azərbaycanın faciəsi öz əksini tapmışdır. Cəmiyyətdə gedən proseslərə sərt tənqidi münasibət psixologizm və bədii ümumiləşdirmə Elçinin yaradıcılığının mahiyyətini təşkil etmişdir.

"Altmışıncılar" ədəbi nəslinin nəsr qolunun inkişafında Sabir Əhmədlinin (1930-2009) də xidmətləri ayrıca qeyd edilməyə layiqdir. "Arabaçı" hekayəsi ilə ədəbiyyata gələn Sabir Əhmədli, hekayənin adından da göründüyü kimi, kiçik adamın bədii obrazını yaratmaq baxımından "Altmışıncılar"ın sənət kredosu olan prinsiplərlə səsləşən əsərlər yazmaqla yaradıcılığa başlamışdır. "Bir payız axşamı" kitabındakı hekayələr təhkiyə tərzi, nağılvari üslubu, adi əhvalatların təsviri ilə həyat həqiqətlərini, insan mənəviyyatını əks etdirən istedadlı qələm sahibi olduğunu nümayiş etdirmişdir. "Aran" və "Görünməz dalğa" romanlarında ədəbiyyatda cəmiyyət həyatının sərt problemlərinə doğru ciddi gedişlər etməsi ilə diqqəti cəlb etmişdir. "Dünyanın arşını" romanı isə yazıçının həyatın dərinliklərinə doğru baxışlarının cəmiyyətin ciddi problemlərinə işıq saldığı üçün siyasi dövrlərdə narahatlıq doğurmuşdur. "Dünyanın arşını" romanının Azərbaycan kommunistlərinin plenumunda tənqid edilməsi böyük rezonansa səbəb olmuş və yazıçı çətinliklərlə üzləşmişdir. Nəhayət, Sabir Əhmədli 1973-cü ildə nəşr etdirdiyi "Yamacda nişanə" povesti ilə siyasi mühitdəki havanın gərginliklərini özünə qarşı aradan qaldırmışdır. Doğrudur, "Yamacda nişanə" povesti də ədəbi tənqid tərəfindən birmənalı qarşılanmamışdır. Ədəbi tənqid bu əsərdə də cəmiyyət həyatındakı neqativ halların təsvirinə aid sərt meylləri bir qədər qabartmağa çalışsa da, ümumən belə təsvirlərin "Altmışıncılar"ın yaradıcılığı üçün səciyyəvi olması nəzərə alınmaqla, "Yamacda nişanə" povesti haqlı olaraq, müasir Azərbaycan nəsrinin mühüm nailiyyətlərindən biri hesab edilmişdir. Həqiqətən, "Yamacda nişanə" povesti yeni nəsrin keyfiyyət dəyişiklərinin bütün tələblərinə və xüsusiyyətlərinə yüksək bədii səviyyədə cavab verən mükəmməl povestdir.

Sabir Əhmədli XX əsrin yetmiş-səksəninci illərində nəşr etdirdiyi "Toğana" (1981), "Yasamal gölündə qayıqlar üzür" (1984), "Mavi günbəz" (1984), "Gedənlərin qayıtmağı" (1985), "Yasaq edilmiş oyun", "Gülmalı kişinin axırı" (1988) və sair kimi əsərləri ilə əslində yaradıcılığının zirvəsinə çatmışdır. Şəhər həyatından alınmış mövzularda yazdığı əsərləri ilə həmin vaxta qədər təmsil olunduğu kənd nəsri arasındakı fərqi aradan qaldırmışdır. Sabir Əhmədli daha çox ədəbiyyatda müasir dövrün sərt və kəskin problemlərini qaldıran yazıçı kimi fərqlənmişdir. Beləliklə, onun bədii əsərləri həyatın dibində olan, cəmiyyətin nəbzində döyünən problemləri yüksək bədii səviyyədə əks etdirməsi ilə ədəbiyyatda özünün fərqli yerini müəyyən etmişdir. Sabir Əhmədli Azərbaycanda dövlət müstəqilliyi uğrunda gedən mübarizənin ədəbiyyatdakı əsas müdafiəçilərindən biri idi. Övladı da Qarabağ döyüşlərində həlak olmuş yazıçı müstəqillik qazanmağın məsuliyyətini və şərəfini özünün "İyirmi Yanvar hekayələri" silsiləsində realist boyalarla əks etdirmişdir. Keçid dövrünən kütlə psixologiyasının xalqa və ölkəyə gətirə biləcəyi fəlakətləri təsvir etməklə o, sel kimi aşıb-daşan el gücünün yalnız ağlın gücü ilə xalqı arzuolunan limana çıxara biləcəyini təsvir etdiyi "Kütlə" romanı (1999) ilə Sabir Əhmədli müstəqillik epoxasının romanını yaratmışdır. Yazıçının "Axirət sevdası" triologiyası (2003) da müstəqillik dövrünün başlanğıc dövrlərinin çətinliklərini sərt həyat həqiqətləri vasitəsilə əks etdirən möhtəşəm nəsr əsəridir. "Şəhid ruhu" povesti (2004) bir qədər avtobioqrafik xarakter daşısa da, həyatın və cəmiyyətin dərin qatlarına, ağrılı problemlərinə müdaxilə edən dövrün ruhunu təqdim edir.

Azərbaycan ədəbiyyatında Böyük Vətən müharibəsi dövrü kənd həyatının real hadisələri və adamlarını əks etdirən Əkrəm Əylislinin (1937) hekayə və povestlərində sovet ədəbiyyatındakı döyüş cəbhələrində vuruşan əsgərlərə kömək üçün sosializm yarışına qoşularaq ərzaq təminatı ilə məşğul olan ənənəvi "arxa cəbhə" anlayışından fərqli olaraq, müharibə illərində kənd adamları ilə idarə rəhbərliyi arasındakı ziddiyyətlər, bu sahədəki sui-istifadə məqamları, sevgi macəraları təbii vasitəsilərlə əks etdirilmişdir. Yazıçının "Adamlar və ağaclar" silsiləsinə daxil olan "Dağlara çən düşəndə", "Mənim nəğməkar bibim", "Tənha narın nağılı" povestləri müharibə dövrü Azərbaycan kəndinin real bədii obrazı hesab oluna bilər. Əkrəm Əylislinin "Ürək yaman şeydir", "Güllü paltar mövsümü" kimi hekayələri "Altmışıncılar"ın yeni hekayə yaratmaq səylərinin ən uğurlu

nümunələrindəndir. Təəssüf ki, Əkrəm Əylislinin Buzbulaq kimi ədəbiyyata gətirdiyi real Azərbaycan kəndi obrazı və daxili ümidləri, təbii tərəddüləri və inamları ilə bir yerdə təqdim etdiyi adi, sadə insanların həyatının gerçək təqdimi, onun yaradıcılığında tədricən tünd boyalarla əvəz edilmiş, nağıl təhkiyəsi yerinə uydurma hekayələrin təsvirinə üstünlük verilmişdir.

Yazıçı İsi Məlikzadə (1934-1995) də "Altmışıncılar" ədəbiyyatının nəsr qolunun aparıcı simalarındandır. Azərbaycan Sənaye İnstitutunun məzunu kimi mühəndis olmasına baxmayaraq, İsi Məlikzadə ədəbiyyat təhsilli istedadlı yazıçılar səviyyəsində ideya-bədii cəhətdən qiymətli əsərlər yazmışdır. Onun əsərlərində Azərbaycan kəndində baş verən yeni münasibətlərin doğurduğu əhvalatlar və yaşadığı dövrün insanlarının mənəvi aləminin təsviri ön mövqeyə çıxarılmışdır. O, "Altmışıncılar"ın yaratdığı Azərbaycan ədəbiyyatında – lirik-psixoloji nəsrin tanınmış nümayəndələrindən biri kimi qəbul olunur. İsi Məlikzadənin "Həsrətin sonu" (1964), "Özgə anası" (1969), "Kövrək qanadlar", "Küçələrə su səpmişəm" (1977), "Yaşıl gecə" (1979), "Günəşli payız" (1982) kitablarında oxuculara təqdim olunan hekayələri və povestləri Azərbaycan lirik-psixoloji nəsrinin qiymətli örnəkləridir. "Dədə palıd" povesti İsi Məlikzadənin proobrazı olaraq səslənən müasir tipli əsər kimi əhəmiyyətlidir. "Gümüşgöl əfsanəsi" (1987), "Şehli çəmənlərin işığı" (1991), "Dolaşaların payız bayramı" əsərlərində yüksək sənətkarlıq səviyyəsində elə bədii parçalar vardır ki, həmin mətnləri mənsur şeir də adlandırmaq olar. Beləliklə, İsi Məlikzadənin yaradıcılığı ilə bütövlükdə "Altmışıncılar"ın ədəbiyyatında yeni lirik-psixoloji nəsr anlayışı daha da möhkəmləndirilərək, mühüm bir ədəbi istiqamətə çevrilmişdir.

Dövrün poeziyası da bədii nəsri kimi İosif Stalinin vəfatından sonrakı tarixi mərhələnin ümumi ab-havasında yeniləşmiş poeziyanın inkişafında xüsusi mərhələ təşkil etmişdir. "Altmışıncılar"ın poeziya qanadının görkəmli yaradıcılarından olan Əli Kərimin (1931-1969) şeirləri bu ədəbi nəslin yaradıcılığına istiqamət verən poetik nümunələrdən ibarətdir. Çox az yaşamasına baxmayaraq, Əli Kərim dövrün ədəbi hadisəsi olan bədii əsərlər yazmağa nail ola bilmişdir. "İki sevgi" kitabında təqdim olunan şeirlər həyatın bağrından qopması, təbiiliyi, insan mənəviyyatının ən incə duyğularını əks etdirməsi ilə Azərlaycan ədəbiyyatında dərin iz salmışdır. Əli Kərimin dillər əzbəri olmuş "Qaytar ana borcunu" şeiri və eyniadlı kitabındakı bir çox şeirlər yeni dövr Azərbaycan şeirinin şedevrləri kimi qəbul olunur. Əli Kərimin əsərləri ilə "Altmışıncılar"ın şeir yaradıcılığının fərqli bir ədəbi istiqamət olduğu təsdiq edilmişdir.

Bədii üslub etibarilə Əli Kərimin şeirlərinə yaxın olsa da, Fikrət Qocanın şeir yaradıcılığı poeziyada həyati proseslərin daha da dərinləşdirilməsi, mənəviyyat aləminin həyatın aynasına çevrilməsi və nəğmə təsiri bağışlayan şeiriyyəti ilə fərqlənmişdir. Fikrət Qocanın (1935-2021) sadə, adi, zəngin mənəvi aləmi olan lirik qəhrəmanı "Altmışıncılar"ın nəsrindəki kiçik insanların şeirdəki əkiz qardaşıdır. Fikrət Qoca poeziyada kiçik insan haqqında böyük ədəbiyyatın əsas yaradıcılarından biridir. O, Azərbaycan şeirində lirik-psixoloji üslubu xüsusi bir ədəbi istiqamətə çevirən şairlərimizdəndir. Azərbaycan nəsri üçün daha çox xarakterik olan lirik-psixoloji üslubu Fikrət Qoca şeirdə də doğmalaşdırmışdır. O, lirik ovqatda yazılmış dərin və səmimi düşüncələrin şairidir. Fikrət Qocanın poeziyasında insan, obrazlı təqdimatı və lirik düşüncəsi ilə oxucuya çatdırılır. Yarım əsrdən çox həyatı və insanı lirika güzgüsündə əks etdirən şair hər şeirində yeni bir poetik səhifə açmışdır. Fikrət Qoca azərbaycanlı xarakterinin bitib-tükənməz və təkrarsız poeziyasını yaratmışdır. Bu mənada Fikrət Qocanın şeir yaradıcılığı insan mənəviyyatının çoxcildlik poetik külliyyatıdır.

"Qağayı" (1963), "Hamıya borcluyam" (1965), "Dənizdə ay çiməndə" (1967), "Yatmadığım gecələrdə" (1970), "Günlərin bir günü" (1972), "İnsanlar arasında" (1974), "Gül ömrü" (1976), "Ulduzlu düşüncələr" (1978) kimi kitablarının adında belə, Fikrət Qocanın şeirlərinin ideya-məzmunu, poetik ovqatı ifadə olunmuşdur. Həyatı və yaradıcılığının bütün mərhələlərində Fikrət Qoca həmişə zamanı oyadan və zamandan qabaqda olan şeirlər yazmışdır.

Səksən-doxsanıncı illərdə çap edilmiş "İnsan xasiyyəti" (1980), "Özünə məktub" (1983),

"Ömürdən səhifələr" (1984), "Yollar ayrıcında" (1985), "Ömürdən bir damla" (1991) kitablarında toplanan şeirləri və poemaları Fikrət Qocanın lirik-psixoloji üslubunu daha da yetkinləşdirmişdir. Müstəqillik dövründə oxuculara təqdim olunmuş "Mavi dünyanın adamları" (1998), "Ömürdən damlalar" (2000), "Hələlik qiyamətsən" (2001) şeirlərində lirik-psixoloji ovqat bir qədər ictimai məzmunla zənginləşdirilmişdir. Fikrət Qocanın "Dayanacaqda görüş" şeirlər kitabı (2009) ilə onun yaradıcılığında yeni mərhələ başlanmışdır. Bu dövrdən etibarən Fikrət Qocanın şeirlərində lirik-psixoloji düşüncələrlə ictimai motivlərin üzvi sintezi, harmoniyası yaranmışdır. "Könlümdən keçənlər" (2009), "Taleyin ağır taleyi" (2009), "Azdır, sözdür, düzdür" (2009) kitablarında və sonrakı şeirlərində Fikrət Qoca daha çox obrazlı düşüncələrlə ifadə olunmuş ictimai lirikası ilə poeziyada təmsil olunmuşdur. Yaradıcılığının son dövrünün şeirləri insan və zaman haqqında poetik monoloqlardan ibarətdir. Bununla belə, lirik-psixoloji şeir Fikrət Qocanın Azərbaycan poeziyasındakı bədii möhürüdür. Aşağıdakı şeir nümunəsi lirik-psixoloji ovqatda köklənmiş şairin yaradıcılığının ana xətlərini özündə cəmləşdirir:

*İşıqlı pəncərələr*
*Göz yumub qaralanda*
*Ay işığı sərilib*
*Damlar üstə qalanda*
*Dəniz nağıl danışır*
*Elə bil ulduzlara.*
*Mən yatıram, unudub*
*Düşüncəmi, fikrimi,*
*Soyunub yorğunluğu*
*Öz iş paltarım kimi, –*
*Özüm də heç bilmirəm*
*Tullayıram mən hara.*
*Bəzən axır yuxuma*
*Bir cır xoruzun banı.*
*Hürküdür kirpiyimdə*
*Mürgüləyən zamanı.*
*Durub ayaq izimi*
*Düzürəm mən yollara.* [4, s.35-36]

Fikrət Sadıq (1930-2016) da həyatdan gələn poeziyanın istedadlı nümayəndəsi kimi yeni dövr Azərbaycan şeirinin mükəmməl örnəklərini yaratmışdır. İlk şeir kitabını "Cığır" adlandıran Fikrət Sadıq "Altmışıncılar" poeziyasında fərdi bədii üslub baxımından yeni cığır açan şairlərdən biri idi. Onun şeirləri həm də müəyyən dərəcədə intellektual xüsusiyyətləri ilə səciyyələnir. "Məndən soruşsalar" (1985) kitabının adı Fikrət Sadığın fərdi üslubundakı sual-cavab, aydınlaşdırma, poetik şərh kimi xüsusiyyətləri önə çıxarır. "Ömrün bir günü" (1965), "Dəniz küçəmizə gəlir" (1968), "Sevgi yağışı" (1970), "İşığın yaşı" (1974), "Yerdən göyə ümid" (1981), "Gəlin yuyaq dənizi" (1988) şeirlər kitabları Fikrət Sadığın lirikası ilə fikir dünyasının poetik tərcümanıdır. Azərbaycan Sovet Ensiklopediyasında çalışmış Fikrət Sadığın şeirlərindəki intellektuallıq onun lirikasında dövrün ictimai mətləblərinin mənalandırılmasına, zamanın irəli sürdüyü suallara cavab axtarılmasına, bir sözlə, düşündürən şeirlərin meydana çıxmasına imkan yaratmışdır. Bu baxımdan, "Dünya öz işindədir" (1989), "Bir parça Vətən" (1988), "Ömrün bir günü" (2002) adlı kitablarındakı şeirlər və poemalar Fikrət Sadığın yaradıcılığında artıq insanın mənəvi dünyasını və həyatın adiliklərinin tərənnümündən müasir cəmiyyətin meydana çıxardığı suallara cavab axtarmağa doğru keçidi əks etdirir. "Gözlədiyim ömür" (2003) Fikrət Sadığın ictimai lirikasının ilk poetik toplusu kimi meydana çıxmışdır. Onun "Bugünnamə" (2007-2008) adlı iki kitabdan ibarət

olan şeirlərində ictimai mətləblər, sərt həqiqətlər, fəlsəfi fikirlər özünə yer almışdır. “Ağlı-qaralı şeirlər” kitabında Fikrət Sadığın vaxtilə insana ünvanlanmış poetik suallarının artıq cəmiyyətə və mürəkkəb dünyaya istiqamət almış müraciətlərə çevrildiyini göstərir. Bütün məqamlarda Fikrət Sadıq “Altmışıncılar” poeziyasının intellektual daşıyıcı kimi daxili təkamül proseslərində olmuş və özünü təsdiq etmişdir.

Poeziyada “Altmışıncılar”ı təmsil edən Ələkbər Salahzadə (1941-2013) və İsa İsmayılzadə (1941-1997) Azərbaycan sərbəst şeirinin yeni və parlaq səhifələrini yaratmışdırlar. “Altmışıncılar”ın sərbəst şeiri özünəməxsus fikir yükü və lirizmi ilə səciyyələnir. Ələkbər Salahzadə fikir poeziyası, İsa İsmayılzadə isə poetik düşüncələri ilə poeziyamızı zənginləşdirmişlər.

Bütövlükdə, Azərbaycan ədəbiyyatında “Altmışıncılar” adlanan yeni ədəbi nəsil ədəbiyyatımızın XX əsrin əvvəllərindəki realist-romantik ənənələrini yenidən dirçəltmiş, ədəbiyyatın, həyatın və insan mənəviyyatının təbii əks-sədası kimi gerçəkliyin bədii ifadəsi üstündə köklənməsini təmin etmiş, adiliklərin ədəbiyyatını yaratmaq missiyasını həyata keçirmişdir. İdeoloji xarakterli ədəbiyyatdan gerçəkliyin bədii ifadəsi olan ədəbiyyata keçid də öz növbəsində Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun mövqelərini sarsıtmış, sovet ədəbiyyatı anlayışını demək olar ki, aradan qaldırmışdır. Beləliklə, sinfi mübarizə konfliktləri, xalqlar dostluğu mövzusu və tarixi nikbinlik prinsipi əsasında sosializm cəmiyyətinin təsviri və təbliği üstündə köklənmiş Azərbaycan ədəbiyyatı həyatın və cəmiyyətin, habelə insan mənəviyyatının təsviri və tərənnümü missiyasını həyata keçirməyə başlamışdır. Bu, sosialist realizmi yaradıcılıq metodu ilə heç bir əlaqəsi olmayan modern bir ədəbiyyat idi. Bu gerçək, həyat həqiqətlərində əks edilən sərt realizmin ədəbiyyatda yaranması və möhkəmləndirilməsi demək idi. Yeni xarakterli bu gerçəkçi ədəbiyyat sərt realizm – modernizm ədəbiyyatının təzahürlərindən ibarət idi. Digər xalqların ədəbiyyatında da “ədəbi prosesə gerçəkliyin daşınması” [6, s.91] modernizmin təməl prinsiplərindən biri hesab olunmuşdur.

Klassik tənqidi realizmdə olduğu kimi, yeni tarixi epoxanın modern ədəbiyyatını yaradan sərt realizm ədəbiyyatında da gerçəkliyin təsviri həyatın adiliklərinin təqdim olunmasından cəmiyyətdə baş verən mürəkkəb hadisələrin və bütün yönləri ilə insana obyektiv şəkildə çatdırılmasına qədərki prosesləri özündə birləşdirir. Anarın “Molla Nəsrəddin – 66” hekayələr silsiləsində mətləblər müəyyən dərəcədə yumoristik şəkildə deyildiyi halda, müəllifin “Molla Nəsrəddin – 86”da ictimai xarakterə malik “Yaxşı padşahın nağılı”, “Qəmli məzxərə” miqyasında bədii ifadəsi artıq klassik tənqidi realizm funksiyalarının sərt realizm formatında təzahür etdirildiyini əyani şəkildə göstərir. Anarın “Molla Nəsrəddin – 86”sində bədii sözün əsas məqsədinin “düzə düz, əyriyə əyri” deməkdən, “haqq sözü gizlədib, nahaq sözü danışmamaq”dan [1, s.286-287] ibarət olduğunu göstərməsi də bu gerçəkliyi qabarıq şəkildə əks etdirir. Yazıçının gerçəkliyi “Ağ liman” povestində hadisələrin daha çox insan mənəviyyatındakı ziddiyyətlərin fonunda təsvir edilməsindən “Otel otağı”nda şəxsiyyət və cəmiyyət səviyyəsində, “Ağ qoç, qara qoç”da Azərbaycan xalqının siyasi taleyi miyqasında çatdırılması sosialist realizminin tarixi nikbinlik prinsipi üzrə təqdim etdiyi yumşaq tənqidin sərt realizm səviyyəsinə yüksəldildiyini nümayiş etdirir. Poeziyada bu proses şeirimizin XX əsrin altmış-yetmişinci illərində təqdim olunan Fikrət Qocanın “Günlərin bir günü” kimi nağılvari təqdimatlarından Fikrət Sadığın XXI əsrin əvvəllərində çap etdirdiyi “Ağlı-qaralı şeirlər”ə qədər inkişaf etmişdir. Göründüyü kimi, ədəbiyyat XX əsrin əllinci illərindəki həyata, insana doğru meyillərdən altmışıncı illərdə gerçəkliyin açıq və aydın təsvir edilməsinə, sonrakı mərhələlərdə isə “ağlı-qaralı şeirlərə” qədər məsuliyyətli yol keçmişdir. Xarakterinə görə, “XX əsrin əllinci illərindəki tənqid təsviri xarakteri daşıdığı halda, artıq altmışıncı illərdə Anarın “Zarafatsız” hekayələrinə, səksəninci illərdə isə Fikrət Qocanın “Yollar ayrıcında”kı baxışlarına qədər dərinləşməkdə davam etmiş, Fikrət Sadığın “Bugünnamə”si kimi sərt realizm miqyasına, səviyyəsinə qaldırılmışdır.

XX əsrin yeni ədəbi dalğası olan “Altmışıncılar”ın, yəni yeni tənqidi realizmin, mövcud adı

ilə desək, sərt realizmin Azərbaycan ədəbiyyatındakı xidmətlərindən biri də sovet dövrü şəraitində Azərbaycan ədəbiyyatında yenidən kiçik adamın bədii obrazının dirçəldilməsi olmuşdur. Anarın və Elçinin nəsr əsərindəki adi adamların təqdimatını həmin dövrün şairlərinin sadə adamların: çoban, pinəçi, işıqçı surətlərində yaratmaları tamamlanmışdır. Bundan başqa, satirik ədəbiyyatın meydanının bütün janrlar üzrə genişləndirilməsi, bədii dilin sadəliyi xalq danışıq dilinə yaxınlaşdırılması, daxili imkanlar hesabına zənginləşdirilməsi, ədəbiyyatda neologizmlərə marağın artması da yeni tənqidi realizmin, yəni sərt realizminin əsas təzahürlərindən biri idi. Bütün bunlar, eyni zamanda altmışıncıların xidmətlərindəndir. Bu isə həm də XX əsrin əllinci illərində "Aralıq ədəbi nəslin" başladığı böyük işin yaradıcı şəkildə davamı olub, yeni bir ədəbiyyat epoxasının, sərt realizmin – modernizmin formalaşdırılması demək idi. "Yetmişincilər"in missiyası isə öz əsərləri ilə mövcud ənənəni daha da möhkəmləndirməkdən və ədəbi fikri milli azadlıq idealına doğru yönləndirməkdən ibarət idi. Şeirdə Sabir Rüstəmxanlı (1946), Hidayət (1944), Zəlimxan Yaqub (1950-2016), Nurəngiz Gün (1938-2014), nəsrdə Kamal Abdulla (1950), Mövlud Süleymanlı (1943-2024), Aqil Abbas (1953), Seyran Səxavət (1946), Afaq Məsud (1957), Səyyad Aran (1952) və başqalarının əsərlərində tarixə və müasir dövrə yüksək vətəndaşlıq mövqeyindən yanaşma, ictimai problemlərin ədəbiyyatının yaradılması, milli azadlıq ideyasının ədəbiyyatın açıq gündəminə gətirilməsi və ədəbiyyatda dekonstruksiya meyillərinin başlanması vəzifələri həyata keçirilmişdir. Milli istiqlal uğrunda mübarizə idealı ilə ədəbiyyata gələn səksənincilərə həm də müstəqil dövlətçilik ideyalarının həyata keçirildiyi dövrün də canlı ədəbiyyatını yaratmaq nəsib olmuşdur. Ədəbi estafet müstəqillik illərində əvvəlcə ayrı-ayrı ədəbi qruplar, sonra isə həmin qrupların birləşərək yaratdıqları ədəbi cərəyanlar üzrə bədii yaradıcılıqlarını davam etdirən yeni nəsilləri də meydana çıxarmışdır. Bununla belə, XX əsrin əllinci illərində meydana çıxmış "Aralıq ədəbi nəsil"in bədii əsərləri və "Altmışıncılar" ədəbi nəslinin genişlənməkdə olan yaradıcılığı bir-birini davam etdirərək, Azərbaycan ədəbiyyatının xüsusi bir mərhələsi səviyyəsinə qalxmış, ədəbiyyatda yeni ideya-estetik prinsiplərinin və ayrı-ayrı üslublarının formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanda təkmetodlu ədəbiyyatdan tədricən çoxmetodlu ədəbiyyata keçidin əsasları bu dövrdə yaradılmışdır. Azərbaycan ədəbiyyatı sosialist realizmi yaradıcılıq metodu ilə paralel olaraq yeni tənqidi realizmə (sərt realizmə – İ.H.) və ekzistensializmə də istinad etməklə təkmetodlu ədəbiyyatdan çoxmetodlu ədəbiyyata keçid mərhələsinə qədəm qoymuşdur. Sosialist realizmindən modernizmə keçid prosesində klassik tənqidi realizmin yenidən canlandırılması ilə yanaşı, Qərbdən gələn ekzistental ədəbi cərəyan da müəyyən rol oynamışdır. Bu baxımdan, tənqidi realizm və ekzistensializm, modernizm ədəbi cərəyanının yaranması üçün ədəbi körpü xarakteri daşımışdır.

Məlum olduğu kimi, XX əsrin altmışıncı illərində Sovet İttifaqı miqyasında keçirilmiş ümumittifaq realizm müşavirələrində sosialist realizmi yaradıcılıq metodundan artıq inkişaf edərək öz içində yeni meyilləri və təmayülləri meydana çıxarması tezisləri ilə artıq ədəbiyyatda sosialist tənqidi realizmi yaradıcılıq metodunun formalaşdığı müddəası irəli sürülmüşdür. Bir qrup yazıçı və ədəbiyyatşünaslar isə sosialist realizmi yaradıcılıq metodunun tərkib hissəsi kimi qəbul edilmiş inqilabi romantikanın da müstəqil yaradıcılıq metoduna çevrildiyi ideyasını səsləndirmişlər. Bu proses Sovetlər İttifaqının yüksək siyasi eşalonunda artıq səsləndirməkdə olan inkişaf etmiş sosializm cəmiyyətinin fonunda ədəbiyyatda meydana çıxmış yeni təmayüllər kimi təqdim edilərək, sovet ədəbiyyatının inkişafının daxili qanunauyğunluqlarından yaranan reallıqlar olaraq bəyan edildiyinə görə təkmetodlu ədəbiyyatdan çoxmetodlu ədəbiyyata keçid üçün real şans yaratmışdır. Lakin radikal sovet ədəbiyyatı ideoloqları tənqidi realizmin tarixi nikbinlik prinsipi üzərində qurulmuş sosialist realizmi yaradıcılıq metodunun prinsipləri ilə üst-üstə düşmədiyini əsas götürməklə, inkişaf etmiş sosializm cəmiyyətinin tənqidinə və təftişinə yol açacağından ehtiyat edərək, "sosialist tənqidi realizmi" yaradıcılıq metodu haqqındakı fikirləri birmənalı şəkildə rədd etmişlər. Eyni zamanda "sosialist-romantizmi" metodu ideyası da sosialist realizmini üstələyərək, onun üzərinə kölgə sala biləcək ədəbi axına çevriləcəyi ehtimal olunduğu kimi qəbul edilməmişdir.

Real həqiqətdə isə XX əsrin əllinci illərində “Aralıq ədəbi nəsil” nə qədər ədəbiyyatı həyata və insana yaxınlaşdırsa da, hələ də sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodu anlayışının tam aradan qaldırılması ağlasığmaz bir ideya ola bilərdi. Bu dövrdə sovet ədəbiyyatında sadəcə, sosialist realizminin hökmü, diqtəsi yumşaldılmış, ədəbiyyatda totalitar yanaşmalardan analitik ədəbi təhlilə və təqdimə doğru meyillər başlanılmışdır. XX əsrin altmışıncı illərində isə artıq “Altmışıncılar” adlanan yeni ədəbi nəsil sözdə sosialist realizmini tənqid və ya inkar etməsələr də, bu yaradıcılıq metodunun tarixi nikbinlik prinsipinin tam əksinə olan tənqidi xarakterli əsərlər yazmaqda inadla davam edirdilər. “Altmışıncılar”ın yaradıcılığında sosialist realizmi ədəbiyyatının əsas prinsiplərindən olan “formaca milli, məzmunca sosialist” ədəbiyyatı yaratmaq tələbindən fərqli olaraq, formaca da, məzmunca da milli ruhlu əsərlərin yaradılması prosesi dərinləşməyə doğru inkişaf etmişdir. “Altmışıncılar” ədəbi hərəkatının ayrılıqda götürülmüş bir müttəfiq respublikanın ədəbiyyatını deyil, geniş mənada Sovetlər İttifaqının bütün respublikalarının ədəbiyyatını əhatə etməsi, ədəbi tənqid tərəfindən bir qədər müqavimət və təzyiq göstərilsə də, de-fakto qəbul olunmuşdur. Beləliklə, əslində sovet ədəbiyyatındakı təkmetodlu ədəbiyyat epoxasına son qoyulmuş, yeni tənqidi realizm və ekzistensializm elan edilməmiş yaradıcılıq metodları kimi ədəbi prosesə daxil olmuşdur. Üstəlik, Azərbaycan “Altmışıncılar”ı XX əsrin əvvəllərində klassik tənqidi realizmin əsaslarını yaratmış Cəlil Məmmədquluzadənin və mollanəsrəddinçilərin yaradıcılıq ənənələrini ustad sözü, müəllimlik andı kimi qəbul etdiklərini açıq şəkildə büruzə verməklə, məntiqli mənada tam olaraq sosialist realizmdən uzaqlaşdıqlarını, tənqidi realizmə üz tutduqlarını bəyan etmişlər. Lakin avtoritar sovet ideoloji rejimi sosialist tənqidi realizmindənsə, “Altmışıncılar” ədəbi nəsli formatının işlədilməsinə daha dözümlü münasibət bəsləmişlər. Çünki “Altmışıncılar” anlayışı zahirən sovet ədəbiyyatının konkret bir dövründə – altmışıncı illərdə yaranmış ədəbi nəsil və ya “Altmışıncılar” ədəbi nəslinin yaratdığı ədəbiyyat mənasını ifadə edə bilərdi. Sosialist tənqidi realizmi termininin əvvəllindəki “sosialist” sözü isə tənqidi realizmlə bir araya sığmayan və əksər məqamlarda ona zidd olan bir baxış olduğu üçün mövcud sovet rejiminin “tarixi nikbinlik” prinsipi üstündə qurduğu kommunist ideologiyasının dağılması demək idi. Bununla belə, necə adlandırılmasından asılı olmayaraq, “Altmışıncılar” ədəbi nəsli ədəbiyyatda “Altmışıncılar” ədəbi hərəkatına çevrilərək, yeni tənqidi realizmin görə biləcəyi işi qətiyyətlə həyata keçirmişdir.

Azərbaycanda “Altmışıncılar”ın sonrakı dövrlərdə ədəbi fəaliyyətlərini qətiyyətlə davam etdirməsində 1969-1982-ci illərdə respublikaya rəhbərlik etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat və incəsənətə, yeni nəsil yazıçı və şairlərin yaradıcılığına xüsusi diqqət və qayğı ilə yanaşması mühüm əhəmiyyətə malik olmuşdur. Ulu Öndər Heydər Əliyevin yeni tənqidi realizmi – sərt realizm – modernizm ədəbiyyatını öz ətrafında birləşdirən “Qobustan” jurnalını haqsız danoslardan qoruyaraq fəaliyyətini davam etdirməsinə açdığı yol, nəticə etibarilə gerçəkçi ədəbiyyatın, “Altmışıncılar”ın ədəbi-ictimai mövqeyinin yüksək səviyyədə dəstəklənməsi demək idi. Azərbaycan Sovet Respublikasının rəhbərinin “Literaturnaya qazeta”ya verdiyi sərt müsahibənin “Qoy ədalət-zəfər çalsın” adı ilə çap edilməsi məntiqi mənada yazıçı və şairlərə həyat həqiqətlərini əks etdirməkdə cəsarət vermişdir.

Təbii olaraq buradan belə bir sual meydana çıxır: “Altmışıncıların istinad etdikləri və ya yaratdıqları (formalaşdırdıqları) bədii metodun, yaxud ədəbi cərəyanın adı nə idi? Axı dünya ədəbiyyatında konkret olaraq hər hansı bir ədəbi nəslin adı ilə adlandırılan bədii metoda, yaxud ədəbi cərəyana rast gəlinməmişdir. XX əsrin əvvəllərində meydana çıxmış “Molla Nəsrəddin” və “Füyuzat” ədəbi məktəbləri də ədəbi cərəyan anlayışı ilə bağlı olsa da, tam olaraq ədəbi cərəyan deyildi. Çünki Azərbaycan ədəbiyyatındakı Nizami, Füzuli, Vaqif, Mirzə Fətəli Axundzadə ədəbi məktəbləri kimi “Molla Nəsrəddin” və “Füyuzat” ədəbi məktəbləri də aid olduqları tənqidi realizm və romantizm anlayışlarından daha geniş mənaları daşıyır. Nizami, Füzuli məktəbləri kimi, “Molla Nəsrəddin” və “Füyuzat” ədəbi məktəbləri də Azərbaycan ədəbiyyatında tənqidi realizm və

romantizm ədəbi cərəyanının mövcudluğunun başa çatmasından sonra da fəaliyyətlərini davam etdirə bilmişlər. Aradan birəsrlik vaxt keçməsinə, ideologiyaların xarakterinin dəyişməsinə baxmayaraq, Azərbaycan ədəbiyyatında bu gün də "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəblərinin ənənələrinin yaradıcı şəkildə davam edirilməsi konkret tarixi dövrlə bağlı olan ədəbi cərəyanla hər hansı bir ənənənin davam edirilməsinə əsaslanan ədəbi məktəbin fərqini meydana qoyur.

Bu, gerçəkdə real şəkildə belə olduğu halda, "Altmışıncılar" ədəbi nəslinin, yaxud ədəbi hərəkatının yaradıcılıq metodu və ya onların formalaşdırdıqları ədəbi cərəyan necə adlandırılmalıdır? Müşahidələr göstərir ki, keçmiş sovet incəsənətində bunun münasib yolu tapılmışdır. Sovet sənətşünasları XX əsrin əlli-altmışıncı illərində əsərlərində tənqidi meyillər müşahidə olunan rəssamların yaradıcılığını "sərt realizm" kimi səciyyələndirmişlər. Sosialist-realizmi nəzəriyyəçiləri tənqidi realizmlə müqayisədə adında tənqid, ifşa anlayışları olmadığı üçün, sərt realizm anlayışına barışdırıcı münasibət bəsləmişlər. Sosialist sənət nəzəriyyəsində sərt realizm, sosialist realizmi yaradıcılıq metodunun inkişaf etmiş sosializm cəmiyyəti mərhələsindəki təzahür formalarından biri hesab edilmişdir. Belə bir təsəvvür formalaşdırılmışdır ki, sərt realizm inkişaf etməkdə olan sosializm cəmiyyətinin yüksəlişinə mane olan meyillərlə mübarizə aparan ədəbiyyatın xarakterini müəyyən edir. Görkəmli Azərbaycan rəssamı Tahir Salahov keçmiş Sovetlər İttifaqı miqyasında sərt realizmin əsas yaradıcılarından biri hesab olunmuşdur. Sərt realizm tənqidi realizm kimi zahirən sosialist realizmini inkar etmirdi. Əslində isə sərt realizm qətiyyən sosialist realizminin təzahür formalarından biri, yaxud bu yaradıcılıq metodunun sinonimi deyildir. Sərt realizm ya yeni tənqidi realizmin sinonimi, yaxud da modernizə olunmuş sosialist realizm demək idi. Sərt realizm XX əsrin əllinci illərində başlanan, altmışıncı illərdə ədəbi hərəkata çevrilmiş yeni tipli modern ədəbiyyatın izmi idi.

Əslində, sərt realizm anlayışı tənqidi realizmdən də kəskin realizm deməkdir. Sovet imperiyası kimi qüdrətli bir derjavanın ideologiyasını dəyişmək, ən azı, mövcud siyasi rejimin buxovlarını dağıtmaq missiyasını həyata keçirmək üçün tənqidi realizmdən də kəsərli olan sərt realizmə ehtiyac var idi. Azərbaycan "Altmışıncılar"ı sosialist realizm ədəbiyyatını sərt tənqidi realizm ədəbiyyatı ilə modernləşdirərək, həmin vəzifəni həyata keçirmişlər. Beləliklə, ədəbiyyatda sosialist realizminin illərdən bəri inadla təbliğ etdiyi proletar beynəlmiləlçiliyi prinsipi əvəzinə, azərbaycançılıq ideyası əmələ gəlmişdir. Azərbaycançılıq ideyası yaxın gələcəyin müstəqil dövlətçilik ideyasının əsasını, təməlini, nüvəsini təşkil etmişdir. Beləliklə, "Altmışıncılar" ədəbi hərəkatının yaranması və inkişafı Azərbaycanda sovet ideologiyası ilə səsləşməyən daha fərqli müasir həyat tərzi və modernist ədəbiyyat yaranmışdır. Bu proses də öz növbəsində keçid ədəbi cərəyanını: sərt realizm-modernizm ədəbi cərəyanını yaratmışdır. Sərt realizm sosialist realizminin modernizə edilmiş fərqli təzahür forması idi. Sərt realizm təmayülünün qəbul edilməsi isə sərt realizm adı ilə ifadə olunan modernizm ədəbi cərəyanının yaranmasının etiraf olunması mənasını daşıyırdı.

Azərbaycan ədəbiyyatında modernizm digər ədəbi cərəyanlar kimi özünəməxsus manifesti, ədəbi mərkəzi və cəbhəsi olan bir cərəyan olaraq fəaliyyət göstərmişdir. Anarın rəhbərlik etdiyi "Qobustan" jurnalı və qismən də "Ulduz" jurnalı modernizm ədəbi cərəyanının ideya mərkəzi funksiyasını yerinə yetirmişdir. Təkrar da olsa, qeyd edilməlidir ki, Anarın "Nəsrin fəzası", Elçinin "Hekayə janrı: imkanlarımız və ideallarımız", Yaşar Qarayevin "Mirzə Cəlilin Novruzəlisi" manifest tipli əsərlər kimi Azərbaycan modernizminin ideya-estetik prinsiplərini və poetikasını meydana qoymuşdur. Azərbaycan ədəbiyyatının altmışıncı illər ədəbi nəsli modernizm ədəbi cərəyanının aparıcı simaları olmuşlar. Beləliklə, Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil"in yaradıcılığı sərt realizm – modernizminin hazırlıq dövrü funksiyasını həyata keçirmişdir. "Altmışıncılar" isə bu ədəbi cərəyanın yaradıcıları və əsas hərəkətverici qüvvələri olmuşlar. Sərt realizm-modernizm XX əsrin altmışıncı illərində formalaşmış, "Altmışıncılar"ın aparıcılığı ilə yetmiş-səksəninci illərdə də fəaliyyətini davam etdirmişdir. Bu mənada sərt realizm – modernizm ədəbi

cərəyanı “Aralıq ədəbi nəsil”lə müstəqillik dövrü arasında fəaliyyət göstərmiş ədəbi cərəyandır. Bu baxımdan, Sərt realizm – modernizm keçid ədəbi cərəyanı da adlandırıla bilər. Sərt realizm – modernizm ədəbi cərəyanının əsas vəzifəsi sovet ədəbiyyatının vahid yaradıcılıq metodu sayılan sosialist realizmini ədəbi prosesdən çıxarmaq və çoxmetodlu ədəbiyyata keçid prosesini hazırlamaqdan ibarət olmuşdur. Obyektiv şəkildə etiraf edilməlidir ki, “Altmışıncılar” həm Sovet İttifaqı miqyasında və həm də Azərbaycan ədəbiyyatında bu məsuliyyətli vəzifəni çətinliklə olsa da, şərəflə həyata keçirmişlər. Bununla belə, artıq qeyd edildiyi kimi, ədəbiyyatşünaslıqda “modernizmi heç cür Azərbaycan cəmiyyətindəki 1991-1995-ci illərdə yaşanmış “keçid dövrü” ilə eyniləşdirmək olmaz. Əksinə, Azərbaycan ədəbiyyatında modernizm, ədəbi cərəyan olaraq 1991-1995-ci illərin keçid dövründə fəaliyyətini başa vurmuşdur. Modernizm “keçid dövrünün deyil, keçid ədəbiyyatının ədəbi cərəyanı idi” [5]. XX əsrin altmış-səksəninci illərindən mövcud olmuş sərt realizm-modernizm ədəbi cərəyanı təkmetodlu sosialist realizm yaradıcılıq metodu ədəbiyyatından müstəqillik dövrünün çoxmetodlu ədəbiyyatına keçid funksiyasını yerinə yetirmişdir. Bu, yeni sərt realizm-modernizm sovet hakimiyyəti illərində mövcud ideoloji baryerlərə görə bəyan edilməsi mümkün olmayan, ədəbiyyatda gedən yeniləşmə axtarışlarının təbii axarından meydana çıxan, elan olunmamış yeni tipli ədəbi cərəyan idi.

Bütün bunlara baxmayaraq, keçmiş sovet cəmiyyətində modernizm müstəqil bir ədəbi cərəyan və yaxud yeni yaradıcılıq metodu kimi etiraf olunmamışdır. Bunun aşağıdakı səbəbləri var idi:

**1.** Sovet ədəbiyyatı vahid yaradıcılıq metodu olan sosialist realizmi metoduna istinad edən təkmetodlu ədəbiyyat kimi qəbul edilmişdi. Sərt realizm-modernizmin yaradıcılıq metodu, yaxud ədəbi cərəyan kimi bəyan edilməsi ilə təkmetodlu ədəbiyyat prinsipi aradan qalxmış olurdu. Ona görə də təkcə modernizm yox, XX əsrin altmış-yetmişinci illərində geniş müzakirələrdən sonra irəli sürülmüş sosialist tənqidi realizmi və sosialist romantizmi yaradıcılıq metodları haqqındakı təkliflər və müddəalar da siyasi rəhbərlik, Yazıçılar İttifaqı miqyasında və digər elmi-ədəbi dairələr tərəfindən qəbul edilməmişdi. Çünki belə hesab edilirdi ki, bu, ölkədəki təkmetodlu ədəbiyyat prinsipinin aradan qaldırılmasına səbəb ola bilər, ədəbi mühitdə anarxiya yaradar.

**2.** Modernizmin heç cür qəbul edilməməsinin, dilə gətirilməməsinin daha bir mühüm səbəbi də Qərbdə bu ədəbi cərəyana bəslənilən mənfi münasibətlə əlaqədar idi. Sovet ideologiyası və sovet ədəbi tənqidi modernizmi burjua ədəbi cərəyanı adlandıraraq, onu rədd etmişdir. Sovet ədəbi tənqidi modernizmə mücərrəd və bayağı ədəbiyyat damğası vurmaqla bu ədəbi axını yad bir baxış kimi tənqid atəşinə tutmuşdur.

## Nəticə / *Conclusion*

Geniş mənada keçmiş sovet ədəbiyyatında gedən proseslərin təcrübəsi və Azərbaycan ədəbiyyatının XX əsrin altmışıncı-səksəninci illərindəki gedişatı göstərdi ki, Azərbaycan ədəbiyyatında modernizm ədəbi cərəyanı olmuşdur. Hər biri ayrı-ayrılıqda meydana çıxmış və konkret yanaşı ədəbi istiqamətlər kimi fəaliyyət göstərmiş “Aralıq ədəbi nəsil”in hazırladığı zəmin əsasında “Altmışıncılar”ın yaratdıqları ədəbiyyat ana hadisələri, xarakteri, mahiyyəti etibarilə sərt realizm – modernizm ədəbi cərəyanını meydana gətirmişdir.

Ümumiyyətlə, “Altmışıncılar” ədəbi hərəkatı, yəni sərt realizm – modernizm ədəbi cərəyanı Azərbaycan ədəbiyyatında xüsusi bir ədəbi mərhələ təşkil etmişdir. Bu ədəbi mərhələ sosialist realizmi ədəbiyyatının süqutu və yekunu, müstəqillik dövrü ədəbiyyatının isə start nöqtəsi və möhtəşəm başlanğıcıdır.

## *Ədəbiyyat / References*

1. Anar. Molla Nəsrəddin – dünən, bu gün. – Bakı: Nurlan, 2011.
2. Əhmədov Teymur. Azərbaycan yazıçıları XX-XXI yüzilliklərdə. – Bakı: Nurlar, 2011.

3. Əlişanoğlu Tehran. Realizmdən modernizmə. Bax: Müstəqillik dövrü, Azərbaycan ədəbiyyatı. 2 cilddə, I cild. – Bakı: Elm və və təhsil, 2016.
4. Fikrət Qoca. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004.
5. Həbibbəyli İsa. Azərbaycan ədəbiyyatında keçid ədəbi cərəyanı. Modernizm. Bax: "Ədəbiyyat qəzeti", 25 iyul 2025-ci il
6. Kurt Mustafa. Çağdaş türk şeirində modernizmin imgeleri. – Ankara: Çolpan kitab, 2018.

# «Среднее литературное поколение» и этап «шестидесятников» в азербайджанской литературе или период «сурового реализма – модернизма»

**Иса Габиббейли**
Академик
Президент Национальной академии наук Азербайджана
E-mail: isa.habibbeyli@science.az

**Резюме.** С выходом на арену «среднего литературного поколения», проживающего в период наступления процессов отхода и отдаления от советской идеологии, в Азербайджане начался новый исторический этап азербайджанской литературы. Оно создало условия и предпосылки для прихода последующего литературного поколения азербайджанских «шестидесятников», в этом состояли и особые заслуги «пятидесятников» – «среднего литературного поколения» писателей и поэтов. В азербайджанской литературоведческой науке довольно много написано о «шестидесятниках», но понятие «среднее литературное поколение» как новый теоретический ракурс ещё делает первые шаги в научно-литературной сфере.

В статье отмечается, что без научного исследования процессов литературно-исторического перехода, ценной деятельности и заслуг «среднего литературного поколения» невозможно дать объективную оценку последнего столетия. Исходя из этого, настоятельно требуется проведение широких и системных исследований о понятии «среднее литературное поколение», самобытной деятельности этого литературного поколения, месте и позиции в азербайджанской литературе. В широком смысле опыт проходящих в прошлом в советской литературе процессов и период азербайджанской литературы 1960-1980-х годов XX века показали, что на подготовленной «средним литературным поколением» как сопутствующим литературным направлением, почве «шестидесятниками» было создано литературное по сути направление «суровый реализм – модернизм».

В целом литературное движение «шестидесятников», т.е. суровый реализм – модернизм», составило особый этап в азербайджанской литературе. Этот литературный этап явился распадом и концом литературы соцреализма, стартовой точкой и грандиозным началом литературы периода независимости.

**Ключевые слова:** азербайджанская литература, «среднее литературное поколение», «шестидесятники», суровый реализм – модернизм, процессы литературно-исторического перехода